# Möhtəşəm qələbənin və sosial rifaha diqqətin əks-sədası

***Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: sosial - iqtisadi inkişafa dair Milli Prioritetlər" sosial inkişafı və vətəndaş rifahının təminatını ölkəmizdə 2021–2030-cu illəri əhatə edən yeni strateji mərhələdə də əsas inkişaf istiqamətlərindən biri kimi nəzərdə tutur. Qətiyyətlə deyə bilərik ki, dövlət başçısının uğurlu sosial-iqtisadi siyasəti nəticəsində son 17 ildə milli iqtisadiyyatın 3 dəfədən çox artması şəraitində sosial rifah səviyyəsinin yüksəldilməsinə xidmət edən mühüm irəliləyişə nail olunub. Əməkhaqları, pensiya, təqaüd və müavinətlər, digər sosial ödənişlər ardıcıl olaraq və dəfələrlə artırılıb. İqtisadi tərəqqi, sahibkarlığın inkişafı, qeyri-neft sektorunun genişlənməsi, yeni iş yerlərinin yaradılmasının daimi prosesə çevrilməsi, sosial müdafiə və aktiv məşğulluq proqramlarının geniş vüsət alması, sosial ödənişlərin davamlı artımı əhali gəlirlərinin də ildən-ilə çoxalması işsizlik və yoxsulluğun kəskin şəkildə azalması ilə nəticələnib.***



Milli Prioritetlərə əsasən, postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələdə inkişafdan hər bir vətəndaşın bəhrələnməsi nəzərdə tutulur. Yüksək və ədalətli sosial təminat bu mərhələnin səciyyəvi inkişaf istiqamətlərindən biri kimi müəyyən olunub. Eyni zamanda iqtisadi inkişafla paralel vətəndaşların sərvət və gəlirlərinin, o cümlədən, əməkhaqlarının artırılması, əməkhaqqı artımının əmək məhsuldarlığının artımı ilə uzlaşdırılması Milli Prioritetlərin əsas hədəflərdəndir. Həmçinin, bütün əhali qrupları üçün səmərəli məşğulluğa və layiqli əməyə nail olunması da bu hədəflər sırasındadır.

Sənəddə sosial təminat sisteminin daha effektiv və ədalətli olması hesabına həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi, pensiya, müavinət, təqaüd və digər sosial ödənişlərin minimum məbləğlərinin yüksək səviyyəyə qaldırılması prioriteti yer alır. Vurğulanır ki, pensiya təminatı sisteminin uzunmüddətli inkişafı üçün onun maliyyə dayanıqlığı gücləndirilməli, pensiya məbləğinin ödənilən sığorta haqqına mütənasibliyi artırılmalıdır.

Böyük qələbə əldə edilən ölkəmizdə sosial reabilitasiya infrastrukturunun inkişafı və genişləndirilməsi həmişə aparılan islahatların əsas məqsədlərindən biri olub. Milli Prioritetlərə uyğun olaraq, növbəti onillikdə də bu infrastrukturun əlçatan olması, habelə əlilliyi olan şəxslərin məşğulluğuna dəstək proqramlarının genişləndirilməsi üçün mühüm addımlar atılacaq. Həssas əhali qruplarının maraq və mənafelərinə cavab verən sosial xidmətlər sisteminin təmin olunması işləri də davam edəcək. Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın ailə üzvləri, müharibə iştirakçıları, müharibədən zərər çəkənlər, erməni terroruna məruz qalanlardan ibarət olmaqla, artıq 3200-dən çox şəxs Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən sosial-psixoloji dəstək və reabilitasiya xidməti ilə əhatə olunub. Qeyd olunan kateqoriyalara aid 2500 ailə ilə görüş keçirilib, psixoloqlardan ibarət qruplar tərəfindən onlardan ehtiyacı olan 1840 ailə ilə fərdi və ailə terapiyası, psixokorreksiya işləri aparılıb. Həmçinin "Onlayn psixoloji dəstək xidməti"nə daxil olmuş 610 zəng üzrə evlərinə gedilməklə psixoloji dəstək tədbirləri görülüb. Eyni zamanda, nazirliyin reabilitasiya müəssisələrində 20 nəfəri şəhidlərin və yaralı hərbçilərin uşaqları, qalanları hərbi qulluqçular olmaqla 300-dən çox şəxsə, Bakı Sağlamlıq Mərkəzində və Sərhəd Qoşunları Hospitalında müalicə olunanlardan 28 hərbi qulluqçuya sosial-psixoloji reabilitasiya xidmətləri göstərilib. 125 hərbi qulluqçu 530-dan çox reabilitasiya vasitəsi, 7 nəfər yaralanmış qazi əlil arabası, 6 hərbçi yüksək texnologiyalı 8 müasir protezlə təmin edilib.

ƏƏSMN-nin tabeliyində Sosial Xidmətlər Agentliyinin postmüharibə dövrü üzrə psixoloji dəstək tədbirləri əsirlik və girovluqdan azad edilərək Vətənə qaytarılan şəxsləri də əhatə edib. Agentliyin psixoloq və psixiatrlarından ibarət mütəxəssis qrupları bu kateqoriyadan olan 14 şəxs və onların ailələri ilə psixo-sosial reabilitasiya işləri aparıblar. Bu işlər, o cümlədən, psixokorreksiya tədbirləri həm əyani, həm onlayn şəkildə həyata keçirilib. Görüşlər zamanı ailələrin sosial vəziyyətləri də öyrənilib, ehtiyaclarına uyğun dəstəklə təmin edilmələri üçün işlər görülüb.

Xatırladaq ki, Sosial Xidmətlər Agentliyi tərəfindən postmüharibə dövrü üçün psixoloji dəstək tədbirlərindən biri kimi, ötən ilin noyabr ayında psixoloji dəstək xətti (050 406 75 85) də yaradılıb. Müharibədən zərərçəkənlərə bu xətt vasitəsilə də (həmçinin zənglə əlaqədar evlərə gedilməklə) onlayn psixoloji dəstək göstərilib.

Sənədə görə ötən dövrdə məşğulluqda özəl sektorun payının artması aparılan sosial-iqtisadi siyasətin əsas istiqaməti olub. 2021–2030-cu illərdə məşğulluqda özəl sektorun payının artması üçün zəruri stimullar yaradılması, muzdla işləyənlərin sayında özəl sektor üzrə işəgötürənlərin payının üstünlük təşkil etməsi, qeyri-formal məşğulluğun qarşısının alınması üçün kompleks tədbirlər həyata keçirilməsi təmin olunacaq. Nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən 2020-ci ildə 100 min işsiz və işaxtaran şəxs münasib işlərlə təmin edilib. Bu dövrdə 12 min nəfər özünüməşğulluq proqramına cəlb edilib. Onlar üçün iqtisadiyyatın müxtəlif sahələri üzrə kiçik təsərrüfatlar, biznes sahələri yaradılıb.

Agentliyin həyata keçirdiyi digər aktiv məşğulluq tədbiri olan peşə hazırlığı kurslarına isə 1014 nəfər cəlb edilib. Onlara əmək bazarının tələblərinə uyğun olaraq müxtəlif sahələr üzrə peşələr tədris edilib. Pandemiya səbəbilə tədris onlayn qaydada davam etdirilib. İşsiz şəxslərə peşə hazırlığı keçdiyi dövrdə minimum aylıq əməkhaqqı məbləğində təqaüd ödənilib. Bundan başqa agentlik tərəfindən ötən il 37 660 şəxs peşəyönümlü tədbirlərə cəlb olunaraq, onlara peşəyönümlü məsləhət xidmətləri göstərilib. Qeyd edək ki, son bir ildə 1300 nəfərə işsizlikdən sığorta ödənişi təyin edilib.

Şanlı zəfərimizlə başa çatan Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın ailələrinə, bu müharibənin qazilərinə özünüməşğulluq proqramı çərçivəsində də sosial dəstək göstərilir. Müharibədən sonrakı dövrdə həmin kateqoriyalardan olan 1700-dən çox şəxs növbədənkənar olmaqla, özünüməşğulluq proqramına cəlb olunub. Onlardan 900-ü şəhid ailələrinin üzvləridir. Proqrama cəlb olunanların istəkləri və əmək bacarıqları nəzərə alınaraq onların seçdikləri iqtisadi fəaliyyət növləri üzrə kiçik təsərrüfat və müəssisələrini qurmaları üçün qısa müddətdə aktivlərlə təmin olunurlar.

Eyni zamanda, şəhid ailəsi üzvləri və qazilərdən ibarət 300 şəxsin məşğulluq məsələləri operativ şəkildə həll olunub. Onlar ödənişli ictimai işlər və əməkhaqlarının bir hissəsinin birgə maliyyələşdirilməsi proqramları çərçivəsində işlə təmin ediliblər.

Prezident İlham Əliyevin 25 yanvar 2021-ci il tarixli "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı həmin kateqoriyadan olan əhali qruplarına dövlət başçısının xüsusi qayğısının növbəti təzahürü oldu. Sənəd 2020-ci ildə ordumuzun həyata keçirdiyi hərbi əməliyyatlar zamanı şəhidlik zirvəsinə yüksələn qəhrəmanlarımızın ailələrinin və bu müharibə ilə əlaqədar əliliyi müəyyən edilən şəxslərin də yaxın dövrdə mənzil və ya fərdi evlə təminatını nəzərdə tutur. Sərəncamda ƏƏSMN-ə bir sıra kateqoriyadan olan şəxs və ya ailələrin 2021 – 2025-ci illər ərzində mərhələlərlə mənzil və ya fərdi evlə təmin edilməsi üçün Azərbaycan Prezidenti ilə razılaşdırmaqla tədbirlər planını təsdiq edib həyata keçirməsi tapşırılıb. Sərəncam 2014-cü il yanvarın 1-dən 2020-ci il yanvarın 1-dək yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış və ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin, şəhid ailələrinin, habelə uçota alınma tarixindən asılı olmayaraq, Çernobıl AES-də qəzanın ləğvi və hərbi xidmət vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə aiddir. Eyni zamanda, yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış və 2020-ci ildə aparılan hərbi əməliyyatlar zamanı Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və şəhid ailələri də sərəncama uyğun olaraq fərdi ev və ya mənzillə təmin olunmalıdırlar.

Sənədə əsasən, həmçinin yerli icra hakimiyyəti orqanlarına qeyd edilən şəxslər barədə məlumatları ƏƏSMN-ə təqdim etmələri, nazirliyin müraciəti əsasında həmin şəxslərin mənzil və fərdi evlə təminatı məqsədləri üçün torpaq sahələrinin ayrılmasını təmin etmələri, hər il görülmüş işlər barədə Prezidentə məlumat vermələri tapşırılıb. Qeyd etmək yerinə düşər ki, indiyədək nazirlik tərəfindən 9100-dən çox mənzil və fərdi ev şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim edilib.

Postmüharibə dövrü üzrə sosial dəstək tədbirlərindən biri də Vətən müharibəsi şəhidlərinin ailələrinə sosial ödənişlərin təyin olunmasıdır. Dövlət Sosial Müdafiə Fondu (DSMF) tərəfindən bu günədək artıq 2837 şəhidin 7000-dən çox ailə üzvünə Prezidentin aylıq təqaüdü, pensiya və müavinət təyin edilib. Müharibədən sonra şəhid ailələrinin üzvlərinin sosial təminat hüquqlarının reallaşdırılması işlərinin operativ təşkili üçün DSMF-də xüsusi işçi qrup yaradılıb, əməkdaşlar səfərbər edilib. Şəhid ailələri üzvlərinin müraciəti olmadan və zəruri sənədlər fond tərəfindən aidiyyəti qurumlardan alınaraq toplanılmaqla ödənişlərin elektron qaydada, proaktiv şəkildə təyinatı həyata keçirilib. Proses artıq başa çatmaqdadır.

DSMF tərəfindən yanvar ayında, ümumilikdə, 2,3 milyon şəxsə pensiya, müavinət, təqaüd, ünvanlı sosial yardım verilib. Həmin sosial təminat növləri üzrə əhaliyə ötən ilin eyni dövrünə nisbətən 11,9 faiz və ya 51,8 milyon manat çox olmaqla 486,9 milyon manat vəsait ödənilib. Onu da bildirək ki, Prezident İlham Əliyevin sərəncamına əsasən cari ilin əvvəlindən pensiyaların ötən ilin orta aylıq əməkhaqqının illik artım tempinə uyğun şəkildə – 11,4 faiz indeksləşdirilərək artırılması təmin edilib.

Bütün sadaladıqlarımız pandemiya dövründə Azərbaycan Prezidenti tərəfindən əhaliyə göstərilən diqqət və qayğının yalnız bir hissəsini əhatə edir. İstər Vətən müharibəsi dövründə qazanılan möhtəşəm qələbədə xüsusi və əvəzsiz payı olan hərbçilərimizə, qazilərə, istər şəhid ailələrinə, istərsə də sadə ölkə vətəndaşına dövlət başçısı tərəfindən göstərilən sonsuz sosial dəstək vətəndaşlarımızda daha böyük ruh yüksəkliyinə zəmin yaradır. "Qarabağ Azərbaycandır!" sözləri bir şüar olaraq xalqın dilində əzbərə çevrilib.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***